

■ Nahidə Əhmədova

## GÜL BALAM, ÇİÇƏK BALAM

Gəlişinlə dünyama
Yeni dünya gətirdin.
Ürəyimdən kədəri,
Dərdi-qəmi itirdin.
Gül balam, çiçək balam!
Çiçəkdən göyçək balam!

Qurban olum gözünə,
El qızınar közünə,
Arzu qızım oxşayır
Göydə Ayın özünə.
Gül balam, çiçək balam!
Çiçəkdən göyçək balam!

Zəmidə sünbül açar,
Bir gün körpəm dil açar.
Həyat gülər üzünə
Arzuların gül açar.
Gül balam, çiçək balam!
Çiçəkdən göyçək balam!

Tanrıdan pay işığı,
Dünyaya yay işığı,
Sən atanın-ananın
Ömrünün yaraşığı.
Gül balam, çiçək balam!
Çiçəkdən göyçək balam!

## LEYLA GÜNƏŞ, ARZU AYDI

Ətir saçır ömrümüzə,
Bəzək olub günümüzə.
Tale gülür üzümüzə,
Tale verən şirin paydı,
Leyla Günəş, Arzu Aydı.

Ürəyimin sevincidi,
İşıq saçan bir incidi.
Evimizin gülşənidi,
Tale verən şirin paydı,
Leyla Günəş, Arzu Aydı.

Dəniz könlüm səpələndi,
Hər bir yana səpələndi.
Həyatıma nur ələndi,
Tale verən şirin paydı,
Leyla Günəş, Arzu Aydı.

Gülüş qondu üzümüzə,
İşıq gəldi gözümüzə.
El qızındı közümüzə,
Tale verən şirin paydı,
Leyla Günəş, Arzu Aydı.

Bu dünyaya yaraşıqdı,
Günə, Aya yaraşıqdı.
Evimizə bir işıqdı,
Tale verən şirin paydı,
Leyla Günəş, Arzu Aydı.